# Kredo

Müstəqil ictimaisiyasi, publisistik qəzet №15 (1271) 02 may 2025-ci il | Qiymәti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# TƏYYAR SALAMOĞLU - 65

## ALİMLİK MİSSİYASI, TƏNQİDÇİ ÖMRÜ

*Hörmətli Təyyar müəllim!*

Sizi - görkəmli ədəbiyyatşünas alimi, tənqidçini, filologiya elmləri doktoru, professor, Əməkdar müəllimi 65 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1960-cı ilin 27 aprelində Sabirabad rayonunun Mürsəlli kəndində dünyaya gəlmisiniz. Orta məktəb təhsilinizi doğma kəndinizdə və qonşu Ulacalı kəndində almısınız. 1977-1981-ci illərdə APİ-nin (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) filologiya fakültəsində təhsil almış, ali təhsilinizi fərqlənmə diplomu ilə tamamlamısınız. 1984-1990-cı illərdə Azərbaycan dili və ədəbiyyatı müəllimi, dərs hissə müdiri vəzifələrində çalışmısınız. Eyni zamanda, Sizin üçün doğma olan Universitetdə qiyabi aspirantura təhsili almış, 1988-ci ildə "XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan uşaq poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmisiniz.

1991-ci ildə taleyiniz yenidən doğma universitetinizə bağlanmış, burada Siz baş laborantlıqdan professor vəzifəsinə qədər yüksəlmisiniz.

Hazırda universitetin Ədəbiyyat kafedrasının professorusunuz. 2007-ci ildə "XX əsrin 80-ci illəri Azərbaycan romanı: janr təkamülü" mövzusunda doktorluq dissertasiyası müdafiə etmisiniz. Filologiya elmləri doktorusunuz.

Dərs dediyiniz tələbələrinizin və ümumiyyətlə, ali məktəblərin filologiya fakültələrinin tələbələrinin təhsil səviyyəsinin yüksəlməsi , müasir tələblərə cavab verməsi üçün çoxsaylı proqram və dərs vəsaitləri tərtib etmiş və yazmısınız. Siz 2021-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adı ilə, 1923-cü ildə isə Azərbaycan Respublikasının Yubiley medalı ilə təltif edilmisiniz. Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2013-cü ilin Prezident təqaüdçüsüsünüz. 2019-cu ildə AMEA-nın Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə ilin alimi adına layiq görülmüsünüz.



2010-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın Filologiya üzrə Eksrert Şurasının üzvü, sədr müavini və sədri kimi çalışmısınız. Bir sıra beynəlxalq elmi konfransların iştirakçısısınız. Elmi məqalələriniz Rusiya, Türkiyə və b. xarıcı olkələrdə çap olunmuşdur.

Respublikamızın elmi və ədəbi ictimaiyyəti Sizi həm də istedadlı ədəbiyyatşünas alim və tənqidçi kimi tanıyır. Keçən əsrin 80-ci illərində yaradıcılığa gələn ədəbi nəslin nümayəndəsisiniz.

Siz ədəbiyyatşünas alim kimi çox məhsuldar bir yaradıcılıq yolu keçmisiniz. Azərbaycan ədəbiyyatının müxtəlif dövrləri və sahələri, o cümlədən orta əsrlər, XIX əsrin sonu XX əsrin əvvəlləri və sovet dövrləri, həmçinin milli ədəbi tənqin tarixi, mühacirət və uşaq ədəbiyyatı Sizin tədqiqat obyektiniz olmuşdur. Nəticə olaraq Siz Azərbaycan elmi ictimaiyyətinə "Pedaqoji mühit və uşaq ədəbiyyatı" (1992, M.Məmmədov və Y.Babayevlə birlikdə), "Faciəli talelər (Azərbaycan mühacirət və repressiya şeirinə dair portret-oçerklər)" (1998), "Müasir Azərbaycan romanının poetikası (XX əsrin səksəninci illəri)" (2005), "Müasir Azərbaycan romanı: janr təkamülü (XX əsrin səksəninci illəri)" (2007), "Müasir Azərbaycan ədəbiyyatı" (2012), "Ədəbi tənqid tarixinə dair portret-oçerklər" (2014), "Azərbaycan tənqidi realizminin estetikası" (2018), "XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri" (2021), "M.Ə.Sabirin milli intibah idealı" (2015), "İsmayıl Şıxlının bədii nəsri" (2012), "Mir Cəlal nəsri və müasirlik" (2018), "Qarlı aşırım"dan keçən yollar" (2016), "Qarlı aşırımın tənqid variantları" (Məhrux Dövlətzadə ilə birlikdə, 2024) adlı elmi-nəzəri məqalələr toplusu və monoqrafiyalar təqdim etmisiniz. 2000-ci illərin ilk onilliyində Azərbaycan romanının poetikası və janr təkamülü istiqamətində apardığınız araşdırmalar Sizi romanşünas alim kimi tanıtmışdır.

Sizin "Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri" (2008), "Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar" (2009), "Azərbaycan ədəbiyyatının müasir problemləri" (2014), "Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər" (2016), və nəhayət, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı " (2025) kitablarınız elmi potensialınızın müxtəlif istiqamətlərinin ən yaxşı göstəriciləridir.

Son illərdə nəşr etdirdiyiniz və ədəbiyyatın siyasətə təkan vermək imkanlarını araşdıran "Ədəbiyyat və siyasət" monoqrafiyanızı da alimin vətəndaşlıq movqeyni qabarıq şəkildə əks etdirən tədqiqat kimi xüsusi vurğulamalıyıq.

Və yenə də son illərdə Sizin elmi potensialınızın tükənməzliyini işarələyən fundamental bir işə imza atmağınızı da xüsusi qeyd etmədən keçməyi mümkünsüz hesab edirik. Biz Sizin böyük türk alimi İsmayıl Hikmətin 1928-ci ildə Bakıda nəşr olunan iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabını (həmkarınız Y.Dadaşlı ilə birlikdə) transliterasiya edib, geniş müqəddimə, izah və qeydlərlə birlikdə elmi ictimaiyyətə və oxucuiara təqdim etməyinizi nəzərdə tuturuq.

Hörmətli Təyyar müəllim!

Biz Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, Sizə uzun ömr və yeni-yeni yaradıcılıq uğurları arzulayırq.

***Azərbaycan Yazıçılar Birliyi.***